

**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı Gəncə şəhəri**

**I yazı**

## *Anadan olmasının 420 illiyi münasibətilə*

# Saib Təbrizinin lirikasında bəşəri duyğular



***XVII əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri olan Məhəmmədəli Saib Təbrizi özündən sonra əziz xalqına böyük bir ədəbi irs qoyub getmişdir.***

***Lirik, məhəbbət şairi Saib Təbrizi 1601-ci ildə Təbriz şəhərində anadan olmuş və ilk təhsilini də burada almışdır. Gənc Saibin tərbiyəsinin təməli vətənində, doğma mədəniyyətin zəminində qoyulmuşdur. Şairin şeirlərindən də bəlli olur ki, o, yaradıcılığa da burada başlamış və ailəsi ilə bərabər İsfahana göçürülən zaman artıq gənc bir şair kimi öz doğma yurdunda tanınmışdır. Şair İsfahana köçəndən sonra Şərqin bir sıra mədəniyyət mərkəzlərində: - Ərəbistanda, Kiçik Asiyada, Əfqanıstanda, nəhayət altı il Hindistanda yaşamış və yenidən İsfahana qayıtmışdır.***

***Saib bir müddət İsfahanda qalıb təzədən ölkəni səyahətə çıxmış, Təbriz, Ərdəbil, Qəzvin, Qum və Xorasanı gəzəndən sonra İsfahana gəlmiş və ömrünün sonuna qədər orada qalmışdır. Saib 1976-cı ildə vəfat etmiş, İsfahanda 'Saib təkyəsi'ndə dəfn edilmişdir.***

Saib Təbrizi zəmanəsinin tanınmış novator şairi idi. O, dövrün "Hind məktəbi" və "İsfahan səpki" (İsfahan üslubu) deyilən yeni ədəbi yaradıcılıq metodu da əsasən onun adı ilə bağlıdır.

Bundan əlavə, Saib hələ sağlığında bir sıra Şərq ölkələrində tanınıb sevilən şair olmuşdur. XVII əsrdən sonra yazılmış elə bir təzkirə və cüngə rast gəlmək olmaz ki, orada Saib haqqında az və yaxud çox fikir söylənilib, şeirlərindən nümunələr verilməmiş olsun. Dünyanın bütün mötəbər kitabxanalarında və əlyazmaları fondunda Saibin müxtəlif illərdə üzü köçürülmüş divanının nümunələri saxlanılır. Ancaq təssüflər olsun ki, şairin Azərbaycan və fars dillərində yazdığı əsərlərin hamısı bizə gəlib çatmamışdır. Təzkirəçilər onun üç yüz min beyt şeiri olduğunu qeyd edirlər. Görkəmli Azərbaycan alimi Təbriz əsilli Məhəmmədəli Tərbiyət isə şairin arxivlərdə saxlanılan 120 min beyt şeirini şəxsən gördüyünü açıqlayır. Müəllifin qeyd etdiyi kimi, bütün bunlar lirik şeirlərdir. Çünki bizə məlum olduğuna görə şairin "Qəndəharnamə" adlı yeganə poeması olmuşdur ki, çox təəssüf, o əsər də hələlik tapılmamışdır.

Tarixi baxımdan Saib Təbrizi qüdrətli lirik şair olmuşdur. Ədəbiyyatşünaslar haqlı olaraq onu Azərbaycan şairlərindən Füzuli, fars lirikasının atası Hafiz Şirazi ilə müqayisə edirlər. Türk ədəbiyyatşünaslarından müəllim Naci Saibin şeirlərinin "Türkiyədə çox şöhrət tapdığını və Hafiz divani kimi tədris olunduğunu" yazır.

***Keçmiş Sovet alimlərindən Y.E.Bertels Saibi "XVII əsrin Hafizi" adlandırır. Həmçinin akademik Həmid Araslı Saibin ana dilində yazdığı qəzəlləri Füzulinin şeirləri ilə müqayisəli şəkildə təhlil etmişdir. Şübhəsiz ki, Saib Təbrizi Azərbaycan ədəbiyyatının mütərəqqi ənənələri ilə bağlı, Şərq poeziyasının öncül cəhətlərini cəsarət inkişaf etdirən böyük bir sənətkar olmuşdur. Biz bu yazıda Saibin lirikasının bəzi xüsusiyyətlərindən danışacağıq. Əlbəttə ki, məqsədimiz Saibi ayrı-ayrı şairlər ilə müqayisə etmək deyil, biz burada orta əsrlər Şərq poeziyasında istifadə edilən məhəbbət mövzusunun bəzi detallarının Saib əsərlərində nə şəkildə həll olunmasını*** aydınlaşdırmağa çalışacağıq.

Məlum həqiqətdir ki, Şərq lirikası əsasən məhəbbət poeziyasıdır. Lakin bu da aydındır ki, bu dövrlərdə "məhəbbət" dar, mücərrəd mənada deyil, sözün geniş mənasında işlənmiş, bir sıra qabaqcıl fikirləri də birləşdirə bilmişdir. Məhəbbət mövzusunun həyatla, dövrün fəlsəfi fikri ilə bağlı müxtəlif qolları vardır ki, onları öyrənmədən şairin təfəkkür tərzini, şeirlərinin məna dərinliyini açmaq çox çətindir.

***Bu baxımdan Saib Təbrizinin divanını diqqətlə gözdən keçirən hər tədqiqatçı şəxs çox aydın görə bilər ki, bu ustad şairin özünəməxsus yaradıcılıq yolu; həyat, insanlar haqqında yeni fikirləri, üslubu, söz demək forması, ifadə xüsusiyyətləri vardır.***

Onun ictimai həyatla səsləşən, qabaqcıl ideyaları, humanizm və insanlıq haqqında fəlsəfi fikirləri, habelə məhəbbətdən bəhs edən şeirlərində məna genişliyi, məhəbbətin yeni keyfiyyətlərini açıb üzə çıxarmaq bacarığı diqqəti cəlb edir. Saib, onu əhatə edən bütün varlıqda məhəbbət görmüş və ona məhəbbət bəsləmişdir. Şairin fikrincə məhəbbətsiz heç bir şey yarana bilməz, əgər yaransa da uzun ömürlü olmayacaqdır. Elə buna görədir ki, Saib bizə yadigar qoyub getdiyi hər sözü, hər misrasını sevə-sevə, öz odlu məhəbbəti ilə yaratmış, onları uzun ömürlü etmişdir. Şairin divanını nəzərdən keçirərkən adama elə gəlir ki, beytlərdə düzülmüş adi kəlmələr onun fikirlər silsiləsindən tamamilə dəyişmiş, təzə ifadə tərzi alıb yeni mənalar kəsb etmişdir.

Sanki şair hər sözü qəlbinin atəşində əritmiş, onu yenidən cilalandıraraq möhkəmləndirmiş və kəsərli misralarda yer vermişdir. Biz Saibin Azərbaycan və fars dillərində indiyə qədər gəlib çıxmış böyük ədəbi irsində məhəbbətin müxtəlif şəkildə tərənnümünə rast gəlirik.

Bu şeirlərdə şairin ruhən bağlı olduğu doğma Azərbaycan poeziyasının nəfəsi, orta əsrlər Şərq şeirinin mütərəqqi ənənələrinin təsiri hiss olunduğu kimi Saibin özünəməxsus yenilik axtarışları da duyulmaqdadır.

Şərqin bütün böyük söz ustadlarıtək Saib Təbrizinin də məhəbbət lirikası ümumi orta əsrlər poeziyasının tərənnüm etdiyi məhəbbət mövzusunun bir sıra əsas problemləri ilə sıxı surətdə bağlı bir lirikadır.

Yeri gəlmişkən qeyd olunmalıdır ki, məhəbbət mövzusu orta əsrlər Şərq poeziyasının aparıcı mövzusudur. İstər kiçik həcmli lirik şeir parçalarında, istərsə vüsətli, geniş hadisələri əhatə edən epik əsərlərdə Şərqin böyük söz sahibləri eşq aləminin müxtəlif cəhətlərini qələmə almışlar.

Aydındır ki, məhəbbətin müxtəlif cəhətləri dedikdə biz heç də sevgililərin xarakterindən doğan sevgi hisslərinin müxtəlifliyini önə çəkmirik. Çünki şəxslər arasında olan sevgi məhəbbət hadisələri nə qədər çoxcəhətli olsa belə, o, yenə orta əsrlər poeziyasının yüksək mövqeyi, dərin mənası qarşısında sadə və həddindən artıq bəsit bir haldır.

Məhəbbət romantik Şərq poeziyasında qeyri adidir, ülvidir, üfüqlərə qədər uzanan yollar üzərindəki ilğım kimi aldadıcı deyil, lirik qəhrəmana ümid və inam verən böyük bir qüvvədir.

**Ey Füzuli, yar əgər cövr etsə**
**ondan incimə,**
**Yar cövri aşiqə hər dəm**
**məhəbbət tazələr -**

deyən Füzulinin lirik qəhrəmanı məhəbbətin cövründən usanıb bədbinləşmir, bəlkə əksinə yarın cövri aşiqin məhəbbətini təzələyir. Bu əzablar ona məhəbbətin yeni-yeni üfüqlərini açır. Bu qeyri-adi məhəbbətin özü də adi bir şəkildə insanla bağlıdır. Çünki bu məhəbbət bir nəfərin (şairin) qəlbində, şüurunda cücərib inkişaf edərək romantik vüsət alsa belə, şairin başqa bir insanın (lirik qəhrəmanın) halında görmək istədiyi həqiqi insanların (əlbəttə ki, oxucuların) qəlbinə yol tapmaq, onları hərtərəfli inkişaf etdirmək üçündür.

Füzulidən misal gətirdiyimiz aşağıdakı beytə diqqət yetirək:

**Əgər eşq əhli etməzsə gözəl**
**məhrulərə rəğbət,**
**Nə lazımdır bu ziynət, bu gözəllik,**
**bu qara tellər.**

Füzulinin dediyi aydındır. Şair həyatın neməti olan bütün bu gözəlliklərin tamaşa edilmək, sevilmək üçün yarandığını deyir. Şeirin tərənnüm etdiyi birinci fikir budur. Onun ikinci mənası aşiqin dünya gözəlliklərini görüb ona rəğbət etməsi, onu dərk etməsi və sevməsidir.

Bu da şairin eşq əhlini həyatın gözəlliklərinə bağlamağa çağırış edən səsidir. Eşqin qeyri-adiliyi və ülviliyi Saib şeirlərində daha geniş mənada təsvir edilməkdədir. Məhəbbət elə bir qüvvədir ki, onu könüldə pünhan, pərdələr arasında gizlin saxlamaq mümkün deyil. Onun şimşəyi çaxmalıdır. Fəqət belə bir eşq ülvi ola bilər, zaman-zaman yaşayıb öz qəhrəmanını da yaşada bilər:

**Bulud qılan kimi cövlan urar da**
**ildırım tici**
**Könül pərdələrində eşqi pünhan,**
**eyləmək olmaz.**

Saibin söhbət açdığı məhəbbət günəş kimi parlaq və hərarətlidir. O hamıya öz nemətlərindən pay verməyə hazırdı. Lakin çox təəssüf ki, hamı onu görə bilmir, hamı onu dərk edə bilmir. Yarasa günəşi hardan görə bilər ki, o özü günəşdən qaçır. Əqli az olanlar haradan bilsin ki, məhəbbət aləmində nələr var:

**Sanma eşqin toxumu hər yerə düşsə,**
**göyərər.**
**Alışan sinədə eşq, atəş içində**
**doğular.**
**Yarasa baxsa da, Saib, görə bilməz**
**Günəşi,**
**Əql acizdi bilə eşqidə nə aləm var.**

Orta əsrlər poeziyasında lirik qəhrəmanlar məhəbbətdən doğur, məhəbbət üçün yaşayır, məhəbbətlə inkişaf edir – kamala çatır, məhəbbət uğrunda əzablara dözür, hicran çəkir, eşqinə fəda olur. Biz əksər hallarda kiçik həcmli şeirlərdə lirik qəhrəmanın müəlliflə – şairlə eyniləşdiyini görürük. Çünki bu əsərlərdə lirik qəhrəmanın dilindən deyilən sözlər şairin fikirlərini, düşüncə və arzularını ifadə edir. Deməli, lirik qəhrəman bir növ şair hisslərinin, idrak və hadisələrə münasibətlərinin ümumiləşdirilməsi, fəallaşaraq təzahür etməsidir. Beləliklə, lirik qəhrəman şairin sevgisinin tam məhsuludur.

**Könül, qəm günlərini tənha keçirmə,**
**istə bir həmdəm.**
**Əcəl xabindən əfqanlar çəkib,**
**Məcnuni bidar et!**

Füzulinin qəzəlindən misal gətirdiyimiz bu beytdə şairə qiyas götürülən "könlü" qəmli günlərinə həmdərd axtararkən Məcnun yada düşür. Çünki şairin əzabları o qədər ağır, keçirdiyi hicran günləri o qədər kədərlidir ki, ona bu dözülməz dərdləri çəkməkdə ancaq Məcnun kimi eşqdə sınanmış bir aşiq həmdərd ola bilər:

**Sözümü pərdələmək**
**heç kəsə qismət olmaz,**
**Nil çayı dalğalarıyla nə edər İsayə?**
**Sən qara baxtın üçün**
**etmə şikayət, Saib,**
**Bir məhəkdir qaralıq çünki gözəl Leyləyə.**

Əgər Füzulidən gətirdiyimiz beytdə şair öz dərdli könlünə Məcnuni həmdərd intixab edirsə, Saibdən gətirdiyimiz misalda şair özü elə Məcnundur. O, özünün qara bəxtindən təəccüb etmir; çünki onun bəxtinə Leyli düşmüşdür Məhəbbətdən doğan lirik qəhrəman əgər uzun ömürlü olmaq istəyirsə o, mütləq sevməlidir, bağlanmalıdır. Çünki məhəbbət onun ömrünün mayasıdır, əgər belə olmasa onun dünyaya gəlib getməsinin heç bir mənası olmaz.

Bu fikri böyük Nizami özünün məhəbbət dastanı olan "Xosrov və Şirin" əsərində gözəl və obrazlı bir tərzdə tərənnüm etmişdir:

**Eşqisiz bir adam bir neydir qırıq,**
**Yüz canı olsa da ölümdür artıq.**

Məhəbbətin dərdindən, əzabından; sevinc və fərəhindən xəbəri olmayan hər kəs sınmış, qırılmış neyə bənzəyir. Onun nə şadlıq təranəsi var, nə kədər fəryadı. O, dünyaya gəldiyi gün – doğulduğu an ölmüşdür. Onu diri hesab etmək olmaz. Bu fikir Saib Təbrizinin də yaradıcılığında diqqəti cəlb edən bir ana xətt kimi özünü göstərməkdir:

**Əgər bu eşq qəmi olmasaydı**
**aləmdə,**
**Nə ilə şad olacaqdı**
**görən bu dərdli ürək?**
**İnan, tikana dönərdi**
**gözümdə gülşənlər,**
**Kədərlə mən də cahandan**
**köçəydim onda gərək.**

Ancaq şairin "Gülşən" adlandırdığı həyat başdan-başa gözəllik, güllük, çiçəklik deyil. Onun dərdli, kədərli, tikanlı cəhəti də var. İnsan həyatının mənası bu gözəlliklərə görə həyata bağlanmaqda, onu sevməkdə özünü təsdiqləyir. Digər tərəfdən onun əzabına, qəminə, də dözməyi, daha doğrusu özündə qüvvə tapıb onu sevməyi də bacarmaq lazımdır. Saibin lirik qəhrəmanı üçün dünyanın ən qiymətli gövhəri eşqidir. Günəş eşqin aynasıdır. Belə bir eşq ülvidir, qadirdir.

O, lirik qəhrəmanı daxilən paklaşdırır, onu fədakar, həm də yenilməz edir:

**Dünya sədəfə bənzəsə dürdanəsidir eşq,**
**Sönməz günəşin nur dolu**
**peymanəsidir eşq.**
**Atəşgədəni, Kəbəni viran eləmiş o,**
**Viranələrin bəlkə də viranəsidir eşq.**
**Dünyaya sevinc də gətirən eşqidi, qəm də,**
**Şadlıq evidir, yoxsa kədər**
**xanəsidir eşq?!**

Orta əsr şeirində lirik qəhrəmanın inkişafı edib kamala çatmasının əsas aparıcı qüvvəsi məhəbbətdir.

**(ardı var)**